# KEÇƏÇİLİK SƏNƏTİ HAQQINDA

***Azərbaycanın ərazisində maldarlıq qədim tarixə malik olmuşdur. Azərbaycanda maldarlığın, xüsusən də qoyunçuluğun inkişafı keçəçilik sənətinin təşəkkül tapmasına səbəb olmuşdur. Keçəçilik təkcə Azərbaycanda deyil, bütün türk xalqları üçün səciyyəvi olmuşdur. Arxeoloji qazıntılar zamanı Altayda Pazırık kurqanında tapılmış keçə parçası bunu bir daha sübut etmişdir.***

Tədqiqatçı Q.Qeybullayev qeyd edir ki, hələ e. ə. V əsrdə yaşamış yunan tarixçisi Herodot sakların başda düz dayanan və keçədən tikilmiş ucu şiş papaq qoyduqlarını yazmışdır (Qiyasəddin Qeybullayev. Qarabağ. Etnik və siyasi tarixinə dair. Bakı. Elm. 1990. səh. 75). Tədqiqatçının fikrincə xakaslarda, tubalarda şamanların baş geyimi də ucu şiş (şişpapaq) papaq olmuşdur. Ucu şiş keçə papaq qazax, özbək və tatarlarda borik, azərbaycanlılar arasında börk adlandırılmışdır (Yenə orada).

Keçədən elatlar alaçıq və dəyələrin üstünün və yanlarının örtülməsində, yaşayış yerinin döşənməsində, yapıncı, papaq, yük heyvanı üçün tərlik və s. hazırlanmasında geniş istifadə etmişlər.

XIX əsr və XX əsrin əvvəllərində bölgədə də inkişaf etmiş sənət sahələrindən biri keçəçilik olmuşdur.

Bölgədə keçənin "qara keçə", "qəlib" və "nəmənd" (naxışlı keçə) kimi iki növündən istifadə edilmişdir.

Cəbrayıl, Ağdam və Karyagində məşhur keçə ustaları (həllaclar) yaşamışlar. Onlar yun qırxını zamanı kəndləri gəzir və sifarişlə evlərdə keçə hazırlayırdılar. Sonralar Laçın, Qubadlı və Zəngilanda da bu peşəyə yiyələnmiş yerli həllaclar yetişmişdir.

Laçın rayon sakini Quba Həsənovanın məlumatına görə Minkənd kəndində məşhur atıcı (bölgədə həllacı "atıcı" adlandırırdılar) Nəsir adlı şəxs olmuşdur. Ona bu sənəti ağdamlı atıcı Baba öyrətmişdi.

Yaşlıların məlumatına görə keçə qəlibini hazırlamaq üçün payız - "güzəm" yunundan istifadə edirdilər. Güzəm yununu əldə etməmişdən əvvəl xüsusi gölməçələr düzəldir və qoyunları bir neçə gün ardıcıl olaraq oraya salırdılar. Beləliklə qoyunlar orada yuyunur, yunu təmizlənərək ağarırdı. Bundan sonra yunun qırxılmasına başlanırdı.

Keçələr adətən yunun rəngindən asılı olaraq ağ, qara və qəhvəyi olurdu.

Atıcının əsas aləti yay və ağac toxmaqdan ibarət olmuşdur. Ağac toxmağın baş hissəsi göbələk şəklində düzəldilirdi. Toxmağın çəkisi 2 kq-a çatırdı. Atıcı yunu sadə quruluşlu yay vasitəsilə atırdı. Yayın hər iki ucu "kiriş"lə bərkidilirdi. Kiriş əsasən qoyun bağırsağından hazırlanırdı.

Kirişi hazırlamaq üçün qoyunun "haram" adlanan bağırsağını (haram bağırsağını) duzlu suda 5 gün müddətində islaqda saxlayırdılar. Bu müddətdən sonra bağırsağı bir çubuğun üstünə buruq şəklində sarıyırdılar. Etnoqrafik materiallardan aydın olur ki, haram bağırsaq elə xüsusiyyətə malikdir ki, onu dartdıqca uzanmağa başlayırdı. Haram bağırsaq çubuğun üzərində quruyandan sonra qatıq və ya süddə islağa qoyulub yumşaldılırdı.

Yayın uzunluğu 1,5 m-ə çatırdı. Kiriş yayın hər iki ucuna bağlanırdı.

2 metrlik keçə qəlibinin hazırlanması üçün 8 kq. yun tələb olunurdu.

Keçənin hazırlanmasında ilk proses yunu kirişlə atmaq idi. Bunun üçün atıcı yayın ucunu yunun içinə qoyur, taxtasının üstünə əski parçası ilə büküb qolunun altında saxlayır, toxmaqla kirişi vururdu. Toxmağın hər zərbəsindən sonra tarım çəkilmiş kiriş silkələnərək yunu qom-qom atırdı.

Tədqiqatçı X.Xəlilov bu prosesi yunun didilməsi adlandırır (X.Xəlilov. Qarabağın elat dünyası. Bakı. 1992. səh. 112).

Yun atıldıqdan sonra yerə salınmış şəddə və ya palazın üstünə bərabər səviyyədə döşənir və üstünə isti su səpilirdi. İsti su yunun tez bitişməsinə şərait yaradırdı. 2-3 nəfər şəddə və ya palazın başından başlayaraq yayılmış yunu şəddə ilə bərabər lülə şəklində büküb örkənlə sarıyırdı. Yunu bükərkən həm də ayaqları ilə döşəməyə bərk sıxırdılar.

Sonra bükülmüş yunun toxmaqlanması prosesi başlayırdı. Bu proses 8-9 saat davam edirdi. Yaşlılar arasında apardığımız sorğulardan məlum oldu ki, bu proses çox zəhmət tələb etdiyindən çox zaman iməcilik vasitəsilə həyata keçirilirdi. Adamlar iki qrupa bölünərək fasilələrlə yunu ayaqla tapdalayırdılar. Qəlibi döyən adamlar bir-birlərinin çiynindən tutaraq bərabər addımlarla təpik vururdular. Elə buna görə də bölgənin bəzi kəndlərində bu prosesi "keçənin təpilməsi" adlandırırdılar.

İməcilik iştirakçıları üçün xüsusi tədarük görülər və geniş süfrə açılardı.

Keçə döyüldükcə sarıq boşalmağa başlayırdı. Bu zaman onu açıb yunun üstünə isti su səpir və əvvəlki qaydada yenidən sarıyırdılar. Yun bitişib tam qəlib halına gələnə qədər bu iş davam etdirilirdi. Beləliklə hazırlanmış məhsul "qəlib" adlandırılırdı.

Qəlibin "baş qəlib", "yan qəlib", "qənşər qəlib" kimi növləri olmuşdur. Bir alaçığın üstünü örtmək üçün baş-başa tikilmiş 6 qəlibdən istifadə edir və o, "baş qəlib" adlandırılırdı. "Yan qəlib"lər alaçığın yanlarına çəkilirdi. "Qənşər qəlib" isə alaçığın qarşısına vurulurdu. Beləliklə, bir alaçıq üçün 12-13 qəlib hazırlamaq lazım gəlirdi.

Bölgədə evlərin bəzədilməsi və döşənməsi üçün "nəmənd" adlanan naxışlı keçədən də istifadə edilmişdir. Nəməndi hazırlamaq üçün əvvəlcədən yunu yuyur və boyayırdılar.

Naxışlı keçəni hazırlamaq üçün onu bükməmişdən əvvəl üstünə rənglənmiş yundan naxış qoyurdular. Qəlib hazır olanda naxış onun ortasında alınırdı.

Keçəçilik sənəti ağır fiziki qüvvə tələb etdiyinə görə bu işlə yalnız kişilər məşğul olurdular.

Bölgədə keçəçiliklə bağlı əmək nəğmələri də yaranmışdı:

***Atıcıyam, yayım var,***
***Çaxmağım var, qovum var.***
***Yunu yığın, gətirin,***
***Burda mənim ovum var.***

***Solmaz MƏHƏRRƏMOVA,***
***tarix elmləri namizədi***